# Azərbaycan-Sudan münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub

Dünən Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Sudan Respublikasının Xarici İşlər üzrə Dövlət naziri Mohamed Abdalla İdris Mohamedin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Azərbaycanla Sudan arasında əlaqələrin dövlət müstəqilliyimizin ilk illərindən inkişaf etməyə başladığını deyən Oqtay Əsədov bildirdi ki, son 10 ildə əməkdaşlıq daha da möhkəmlənib. Azərbaycan bunu yüksək qiymətləndirir.



Oqtay Əsədov iki dövlət arasında münasibətlərin inkişaf etməsində parlamentlərarası əlaqələrin də rolunun böyük olduğunu vurğuladı. Sədr qeyd etdi ki, Sudanla Azərbaycan beynəlxalq tribunalarda, müxtəlif qlobal tədbirlərdə bir-birini dəstəkləyən ölkələrdir: “Bu gün ölkələrimiz arasında sosial, iqtisadi, humanitar və digər sahələr üzrə münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan Dövlət Neft Akademiyasında Sudandan oxumağa gələn tələbələrin sayı ildən-ilə artır”.

Görüş zamanı Oqtay Əsədov Sudanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini xüsusilə qeyd etdi: “Sudan Azərbaycanı beynəlxalq tribunalardan dəstəkləyən ölkədir. Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Sudan dövləti hər zaman ədalətli mövqe tutub və iştirak etdiyi beynəlxalq tədbirlərdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Eyni zamanda 2014-cü ildə Xocalı soyqırımını, bu qətliamı törədənləri pisləyib”.

Sudan Respublikasının Xarici İşlər üzrə Dövlət naziri Mohamed Abdalla İdris Mohamed iki ölkə arasındakı əlaqələrin daim yüksək səviyyədə olacağını və bunun üçün əlindən gələni əsirgəməyəcəyini dedi.

Qonaq görüş zamanı Azərbaycan dövləti ilə bütün istiqamətdə əlaqələrin inkişafında ölkəsinin maraqlı olduğunu diqqətə çatdırdı: “Azərbaycan Sudan üçün maraqlı ölkədir, inkişaf strategiyanızı çox bəyənirik. Hər zaman çalışacağıq ki, əlaqələrimiz daha da inkişaf etsin, həm də bütün istiqamətlərdə. Bizim burada səfirliyimizin olması təsadüfi deyil. Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı da hər zaman Azərbaycanın yanındayıq. İşğal olunmuş torpaqlarınız azad olunana və tarixi ədalət bərpa edilənə qədər də bu missiyanı davam etdirəcəyik”

***E.HADIYEV,***
***Fərman BAĞIROV(foto),***
***“Azərbaycan”***

Azərbaycan.- 2018.- 7 aprel.- S.3.